Ulduz Fərhad qızı Qəhrəmanova

filologiya üzrə fəlsəfə doktoru ADPU-nun "Ədəbiyyat" kafedrasında dosent əvəzi
ulduzkahraman1@gmail.com Orcid İD: 0009-0003-4418-9319

MILLI MAARIFÇI REALIZMIN MƏRHƏLƏLƏRI VƏ ESTETIKASıNDAKı TIPOLOJI MÜXTƏLIFLIK

Annotasiya: Məqalədə maarifçilik ədəbi cərəyanının sentimentalizm ədəbi cərəyanı ilə paralel şəkildə fəaliyyət göstərməsi məsələsi təhlil edilmişdir. Həmçinin Azərbaycan ədəbiyyatı tarixində maarifçilərin ədəbiyyatşünaslar tərəfindən qruplaşdırılmasının nəzəri təhlili tədqiqatçı tərəfindən izah edilmişdir. Məqalədən məlum olur ki, Azərbaycan ədəbiyyatı tarixində XIX əsr maarifçi realizm, XX əsr isə satirik və realist inikas üsullarında multikulturalizmin təzahürlərinin izlərinin görüldüyü bir dövr idi. Tədqiqat əsərində XIX-XX əsrlər maarifçiliyinin 2 zamanın kəsişdiyi dövrdə inkişafı tədqiqatçı tərəfindən təhlil müstəvisinə gətirilmişdir.

Açar sözlər: maarifçilik, ədəbi cərəyan, dünya ədəbiyyatı, Azərbaycan ədəbiyyatı

STAGES OF NATIONAL ENLIGHTENMENT REALISM AND TYPOLOGICAL DIVERSITY IN AESTHETICS

Ulduz Farhad Kahramanova

Doctor of Philosophy in Philology Deputy Associate Professor

at the Department of "Literature" of the Azerbaijan

State University of Political Science and Technology

Abstract: In the history of literature of the world's peoples, the age of enlightenment is known not only as the "age of reason" (V. Belinsky), but also as the "age of ink" (F. Schiller), and even as the age of "carrying out revolutions not with blood, but with ink". Enlightenment as a literary movement arose in Europe in the 18th century. In general, in the history of literary and theoretical thought, enlightenment, instead of being analyzed as an artistic and philosophical movement, is studied as enlightenment realism within the framework of realism. Russian literary critics sought the formation of realism as a method and movement in Russian literature in the works of artists who wrote and created in the second half of the 18th century within the framework of enlightenment. In the genesis of the Enlightenment in European literature, D. Defoe's "Robinson Crusoe" (1719) was the first examples of European Enlightenment realism in poetry, R. Bernets and I.V. Hote created the first examples.

The Enlightenment literary movement operated in parallel with the sentimentalism literary movement. Representatives of the Enlightenment realism literary movement in the history of world literature: Voltaire, Denis Diderot, Rousseau, etc. These artists stepped onto the platform when it came to artistic creativity. The platform of Enlightenment realism was built on the denial of the classics. However, this does not mean that the classics were not given a place at all. The Enlightenment did not accept certain principles of the classics. Thus, according to the philosophy of the classics, the laws of beauty

are eternal and unchangeable. Since these laws were initially formed in antiquity, the artists of the later period should take their themes from this literature. According to the Enlightenment, beauty means truth raised to heights by the talent of the artist. And the subject of a work of art is beauty, that is, in fact, the subject of a work of art is truth. That is, when the Enlightenment said beauty, they meant the truth of life. The Enlightenment realists said that every era had its own beauty. That is, every era has its own truths. Also, the Enlightenment realists took simplicity as one of the laws of beauty. The Enlightenment was also against confusing simplicity with brevity.

Keywords: Enlightenment, literary movement, world literature, Azerbaijani literature

Ədəbiyyat tarixində həyatla bağlı olmayan hər hansı bir bədii metod və yaxud ədəbi cərəyan yoxdur. Bir bədii yaradıcılıq metodu və ədəbi cərəyan kimi realizm ədəbi cərəyanı da XIX əsrin hadisəsidir. Yəni XIX əsrdə burjuaziyanın möhkəmlənməsi ilə əlaqədar olaraq realizmin surətlə inkişafına rast gəlirik. Belə ki, ədəbi cərəyan kimi realizm ədəbi cərəyanı XIX əsrin ortalarında Fransada "Realist məktəb" adlandırılan qurumun nümayəndələri tərəfindən təməli qoyulmuşdur. Yəni XIX əsrdə realizm ədəbi məktəb səviyyəsində dayanır. Realizmi yalnız burjua cəmiyyətinin inkişaf etməsi ilə bağlamaq düzgün deyildi. Daha dəqiq desək, burjua cəmiyyəti ilə bağlı yaranan realizm realizm ədəbi cərəyanını formalaşdırdı. Keçmişdə, qədim və orta əsrlərdə yazıb yaradan böyük sənətkarların yaradıcılığında rast gəlinən realizm stixiyalı realist adlanır. Yəni klassik dövrdə real ədəbi metodla yazılan realist əsərlər stixiyalı realist əsərlər adlanır.

Realizmin əsasında həyat, xalq, dövrün qabaqcıl ideyası dayanmışdır. Realizm təkcə həyatın düzgün təsviri prinsipini irəli sürməklə qalmır. Realizm eyni zamanda ictimai idealı da tərənnüm edir. Realizm həmçinin inqilabi hərəkatın da düzgün təsvirini verirdi. Realizm ədəbi cərəyanı Dünya ədəbiyyatına Balzak, Mopassan, Qoqol, L.Tolstoy, F.Dostoyevski, C.Məmmədquluzadə, M.Ə. Sabir kimi qüdrətli nümayəndələri bəxş etdi. Realizmin əlamətləri də Azərbaycan ədəbiyyatında bütün tarixi boyu mövcud olub.

Dünya xalqlarının ədəbiyyat tarixində maarifçilik əsri yalnız "ağıl əsri" (V.Belinski) kimi tanınmır, həmçinin "mürəkkəb əsri" (F.Şiller), hətta inqilabı belə qanla yox, "mürəkkəblə icra etmək" əsri kimi tanınırdı. Maarifçilik ədəbi cərəyan kimi XVIII əsrdə Avropada yaranmışdır. Ümumən ədəbi-nəzəri fikir tarixində maarifçilik bir bədii fəlsəfi cərəyan kimi təhlil olunmaq əvəzinə, maarifçi realizm kimi realizmin tərkibində tədqiq olunur. Rus ədəbiyyatşünasları Rus ədəbiyyatında bir metod və cərəyan kimi realzmin təşəkkülünü maarifçiliyin bətnində XVIII əsrin II yarısında yazıb-yaradan sənətkarların əsərlərində axtarırdılar. Avropa ədəbiyyatında maarifçiliyin genezisində D.Defonun "Robinzon Kruzo" (1719), poeziyada Avropa maarifçi realizmin ilk nümunələrini R.Bernets və İ.V.Höte yaratdılar.

Azərbaycan ədəbiyyatında ilkin maarifçilik mərhələsində burjua cəmiyyətinin qəddar və yırtıcı təbiəti hələ ortaya çıxmamışdır. Ona görə də sosial ədalətsizliyin azalmasında düzgün tərbiyə amilinə xüsusi əhəmiyyət verilirdi. M.F.Axundov irsi isə bütövlükdə maarifçiliklə bağlıdır. Və Axundovun bədii yaradıcılıq metodu maarifçilik dövrünün realizmidir. Azərbaycan maarifçilik rişələrini A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutqaşınlı yaradıcılığında izləmək ənənəsi mövcuddur. Axundov haqlı olaraq 3 sələfi maarifçilik realizminin banisi hesab edir. M.F.Axundov tərəfindən yaradılan maarifçi realizm 80-90-cı illərdən Azərbaycan ədəbiyyatının digər janrlarında da kütləviləşdi. Maarifçilik Seyid Əzim Şirvani yaradıcılığında özünü yeni keyfiyyətlərlə büruzə verdi. Seyid Əzim Şirvani maarifçi poeziyası ilə milli satiranın Zakir və Sabir qütblərini birləşdirən ədəbi bir körpü olmuşdur.

Azərbaycan ədəbiyyatşünaslarından olan Nizaməddin Şəmsizadəyə əsasən deyə bilərik ki, maarifçilik dünya düşüncəsi tarixində Renesssans və klassizmdən sonra Avropada XVIII əsrdə meydana gəlmiş universal mədəni-tarixi hərəkat, bədii-fəlsəfi cərəyandır. Böyük Alman alimi

F.Engelsin "Düşünən zəka" mövcud olan hər şeyin yeganə meyarıdır" fikrini maarifçiliyin şüarı kimi qəbul etmək olar. Avropada maarifçilik ədəbi cərəyan kimi XVIII əsrdə formalaşmışdır. Alimlər maarifçi estetikanın əsas qüsuru məhdudluğu olaraq bütövlükdə sənətə tarixi yanaşmamasını qeyd edirlər.

Maarifçilik ədəbi cərəyanı sentimentalizm ədəbi cərəyanı ilə paralel şəkildə fəaliyyət göstərmişdir. Maarifçi realizm ədəbi cərəyanının Dünya ədəbiyyatı tarixindəki nümayəndələri: Volter, Deni Didro, Russo və b. Bu sənətkarlar bədii yaradıcılığa gələndə platforma ilə qədəm qoydular. Maarifçilik realizmi platforması klassiklərin inkarı üzərində qurulmuşdur. Ancaq bu klasssiklərə heç də yer verilməməsi demək deyil. Maarifçilər klassiklərin müəyyən prinsiplərini qəbul etmirdilər. Belə ki, klassiklərin fəlsəfəsinə görə, gözəllik qanunları əbədi və dəyişməzdir. Bu qanunlar ilkin olaraq antik dövrdə təşəkkül tapdığı üçün sonrakı dövrün sənətkarları mövzularını bu ədəbiyyatdan götürməlidirlər. Maarifçilərə görə, gözəllik sənətkarın istedadı ilə yüksəkliklərə qaldırılmış həqiqət deməkdir. Və bədii əsərin predmeti gözəllikdir, yəni əslində bədii əsərin predmeti həqiqətdir. Yəni maarifçilər gözəllik dedikdə həyat həqiqətini nəzərdə tuturdular. Maarifçi realistlər deyirdilər ki hər dövrün öz gözəlliyi vardı. Yəni hər dövrün öz həqiqətləri vardır. Həmçinin maarifçi realistlər gözəlliyin qanunlarından biri kimi sadəliyi əsas götürürdülər. Həmçinin maarifçilər sadəliklə bəsitliyi qarışdırmağın da əleyhinə idilər.

Didro deyirdi ki, əsərdə həyat hadisələri sadə şəkildə əks edilməlidir. Didro sənətkarların böyük idealını xalqına xidmətdə görürdü. Didro bədii əsərdə ictimai xarakter yaratmağı əsas cəhət hesab edirdi. Ona görə cəmiyyətdə də hər bir ictimai zümrənin öz xüsusiyyəti vardı. Onların hər birinin öz ifadə tərzi var. Didro klassizmə məxsus olan "Üç Vəhdət" qanunu da qəbul etmirdi. Didro yoxsul kəndlilərin daxmalarına daxil olmağı və ordakı həyatı öyrənməyi vacib hesab edirdi. Və sənətkarları buna çağırırdı. Maarifçi realistlər bədii əsərdə konfliktin mahiyyətini düzgün müəyyənləşdirmişlər. Belə ki, ictimai konflikt bədii əsərdə klassiklərdə olduğu kimi, insanla tale arasında yox, insanla cəmiyyət arasında olmalıdır. Bəli, ictimai konflikt cəmiyyətdəki ədalətsizliklə mübarizə üzərində qurulmalıdır.

Göründüyü kimi, maarifçi realizmin əsas xüsusiyyətləri XVIII əsr maarifçilərinin-Volter, Didro kimi müəlliflərin nəsrində özünü belə göstərmişdir. Həmçinin maarifçilər teatr və dramaturgiyaya da sosial tərbiyə janrları kimi baxırdılar. Azərbaycan ədəbiyyatı tarixinə nəzər salsaq görərik ki, Azərbaycan maarifçiliyində ən əsas janr elə M.F.Axundovla təməli qoyulan dramaturgiya aid komediya janrıdır. Maarifçi realizmin əsas əlaməti müsbət və şüurlu insan tərbiyəsində təhsilin, elmin birinci dərəcəli olmasıdır. Maarifçi realizm terminina yaxın olan anlayış pedaqoji roman anlayışıdır. Maarifçi yazıçılar öz əsərlərində düzgün tərbiyə sistemi və onun nəticəsi olan şüurlu vətəndaşların obrazlarını yarartmağa çalışırdılar.

Məlumdur ki, ilkin maarifçilik mərhələsində hələ burjua cəmiyyətinin qəddar, yırtıcı təbiəti ortaya çıxmışdır. Maarifçi realizm üçün cəmiyyətin ziddiyyətlərini, insanların qüsurlarını, tərbiyəsizliyin, savadsızlığın nəticəsi kimi təqdim olunması səciyyəvi idi. Azərbaycan ədəbiyyatında maarifçilik XIX əsrin II yarısında formalaşmışdır. Azərbaycan ədəbiyyatında ilk maarifçi realizmin ən bariz nümayəndələri Abbasqulu Ağa Bakıxanov, Qasım bəy Zakir, Mirzə Fətəli Axundov idi.

Ümumiyyətlə, Azərbaycan ədəbiyyatı tarixində maarifçiliyin əsası Abbasqulu Ağa Bakıxanov ilə qoyulmuşdur. Həmçinin Azərbaycan ədəbiyyatı tarixində maarifçiliyi bədii-fəlsəfi cərəyan səviyyəsinə qaldıran Mirzə Fətəli Axundov olmuşdur. Maarifçilik konsepsiyasına görə, maarifli olmaqla cəmiyyətdə ədaləti bərpa etmək, qanunsuz hərəkətlərin qarşısını almaq mümkündür. Xalis maarifçilərə görə, sivilizasiyalı adam daha ədalətli hesab edilir. Yəni maarifçilər ədalət problemini birbaşa savad və tərbiyə ilə bağlayırdılar. Lakin xüsusilə qeyd etməliyik ki, maarif və düzgün tərbiyə sosial tərəqqi yarardan mühüm prosesdir. Lakin maarifin çiçəklənməsi birbaşa cəmiyyətdə sosial ədalətin artmasına səbəb olmur. Maarifçiliyin böhranı odur ki, savadlı olmaqla

cəmiyyətdə ədaləti qorumaq mümkün deyildi. Ona görə də getdikcə bu şüar özünü doğrultmadı. Belə ki, şər işlər görməklə savadlı adamların savadsızlardan daha təhlükəli olduğu aydınlaşdı.

Maarifçilik fəlsəfəsinin problematikasını Yaşar Qarayev belə qoymuşdur:

1. Feodal təhkimçilik quruluşunu tənqid etmək, orta əsr geriliyini, təlim-tərbiyə sistemini qamçılamaq

2. Dünyəvi təhsili, elmi bilikləri, Avropa və Rus mədəniyyətini təbliğ etmək

3. Azadlığı, hüquq bərabərliyini müdafiə etmək

Azərbaycan ədəbiyyatında realizm nəzəriyyəçisi Yaşar Qarayev və onun "Azərbaycan realizminin mərhələləri" adlı fundamental monoqrafiyasıdır. Azərbaycan realizminini M.P.Vaqifdən M.F.Axundzadəyə qədərki mərhələsində A.Bakıxanov, M.Ş.Vazeh, İ. Qutqaşınlı Q.Zakir kimi ədəbi şəxsiyyətlər bunu bir cərəyan səviyyəsinə qaldırdılar. Ədəbiyyatşünas Yaşar Qarayev "Azərbaycan realizminin mərhələləri" (1989) adlı əsərində göstərir ki, bizim milli realizmin öyrənilməsində ilk mərhələ XIX əsrin ilk illərinə təsadüf edir. Azərbaycanda realizm nəzəriyyəsinin ilk böyük yaradıcısı Vaqif və Zakirin milli ruhlu realist şeirləri olmuşdur. Yaşar Qarayev maarifçilərin 2 mühüm cəhətini ön plana çəkmişdi:

1.İnsanda hiss və əqli cəhətlərin vəhdətini

2.Sənətin həyatla bağlılığını

Yaşar Qarayev maarifçiliyi bədii-fəlsəfi cərəyan kimi ayrıca tədqiq edib öyrənməyin tərəfində idi. Yaşar Qarayev maarifçiliyi bütöv realizmə qatışdırmağı qəbul etmirdi. Azərbaycanda milli realizm M.F.Axundovun yaradıcılığı ilə bağlıdır. Həmçinin F.Köçərlinin "Təmsilat" haqqındakı məqalələrini ilk nəzəri sənəd kimi qəbul etmək olar. Ədəbiyyatşünas F.Köçərli realizmin ədəbi inkişaf tarixindəki ilk mərhələni nəzərdə tutaraq yazırdı ki, Vaqif Azərbaycan ədəbiyyatının banisi hesab olunur. Müəllif şeirdə özünü göstərən yeni istiqamətin ən görkəmli nümayəndəsi kimi Q.Zakirin adını çəkir. Milli realizmin Vaqif mənşəyi və ondan başlanan Zakir-Axundov realizmi Yusif Vəzir Çəmənzəminli kimi müşahidələri ilə təsdiq edilir. Belə ki, Y.V.Çəmənzəminli deyirdi ki, Axundovla, Zakirlə başlanan realizm Sabir tərəfindən zirvəyə qaldırıldı. "Zakir xəstə millətin bir əzası ilə məşğul olmuş, onu məhv edən mikrobları göstərmiş, Sabir isə bütün millətin vücudunda çürümüş cəhətləri meydana çıxarır. Zakir məhəllə, əyalət şairidir. Sabir isə azərbaycançılıqdan, Şərq intibahından çıxıb, ümuminsaniyyət şairi olur". Qeyd edək ki, Vaqif və Zakir dövrünün realizmi realist ədəbi metodla yazılan sənət nümunələridir.

Rəhim Əliyevə əsaslanaraq, Azərbaycan maarifçilərilərini belə qruplaşdırmaq mümkündür:

I.Qərb maarifçiliyi: Sovet hakimiyyəti qurulanadək Azərbaycanda Qərb maarifçiliyi üstünlük təşkil edirdi. Belə ki, Qərb xalqlarının mədəni və iqtisadi tərəqqi yolunu özlərinə nümunə kimi götürürdülər.

II.İslam maarifçiliyi: Onlar qərbpərəst ziyalılara və Avropa tipli təhsilə qarşı çıxırdılar. İslam maarifçilərinin 2 qanadı vardı:

1.İranda təhsil alanlar: İslam maarifçiləri iddia edirdilər ki, müsəlmanlara qurandan başqa heç bir bilik lazım deyil. Quranda bütün sualların cavabları var. İslam maarifçiləri təhsil konsepsiyasında orta əsrə aid mollaxana təhsilinə üstünlük verir, sinif-dərs sisteminə qarşı çıxır. Rus dilli məktəbinə

gedənlərək kafir damğası vururdular. İslam maarifçilərinin əsas ideyaları İslam dinini müdafiədən ibarət idi. Onlar İslam dinini və əxlaqını digər din və əxlaqlardan üstün sayırdılar. Quranın ən düzgün elmi mənbə olduğunu irəli sürürdülər. Avropa fikrinin istənilən konsepsiyasını Qurandan gətirdikləri misallarla, sübutlarla gözdən salırdılar. İslam maarifçilərinin ədəbi yaradıcılıqda ən çox meyl etdiyi janr qəzəl janrı idi. Fars dilində təhsil almağa üstünlük verirdilər. Sovet dövründə bolşeviklər dini qadağan etməklə İslam maarifçiliyini zor gücünə aradan qaldırdılar.

2.Türkiyədə təhsil alanlar: Osmanlı dilində təhsil almağa üstünlük verirdilər. Bununla da həm İranda təhsil alanlar, həm də Türkiyədə təhsil alanlar ana dilimizin əhəmiyyətini inkar edirdilər.

III. Marksist maarifçilik: Sovet hökuməti qurulduqdan sonra (Sovetləşmədən sonra) Azərbaycanda yaılmağa başlandı. Marksist maarifçilik Avropanın ateist maarifçiliyinin bir forması idi. Sovet dövründə bolşeviklər dini qadağan etməklə İslam maarifçiliyini zorla aradan götürmüşdülər.

Antik dövrün Yunan həyatının qayda-qanunları ilə XVIII əsr Fransa həyatı bir-birindən fərqlənirdi. Maarifçi realistlər ədəbiyyatı həyatla bilavasitə bağlayırdı. Maarifçi realistlər klassiklərin bir çox keyfiyyətlərini bəyənirdilər. Məsələn: Maarifçi realistlər deyirdilər ki, klassiklər insana düşünməyi öyrətdilər. Klassiklərin ağıla hissdən çox üstünlük verməsini maarifçilər yüksək qiymətləndirirdilər. Maarifçi realistlər klassiklərin əsərlərində vətəndaşlıq keyfiyyətlərini, vətənə məhəbbət keyfiyyətini alqışlayırdılar. Məlumdur ki, Azərbaycan ədəbiyyatının XIX-XX əsrlər dövrü milli oyanış prosesi və modern mədəniyyətinin təşəkkülünün vəhdəti dövrü idi. Bu dövr: XIX-XX əsrlərdə ədəbiyyatımızda maarifçilik ideyalarının yayılması, milli azadlıq və istiqlal arzularının bədii ifadəsi, cəhalətə və mövhumata qarşı mübarizə ilə yanaşı xalqlar dostluğu, tolerantlılıq (dözümlülük) və multikultural dəyərlərin təbliği bədii əsərlərdə mühüm yer tuturdu.

Tarixi həqiqətlərə əsaslanaraq demək olar ki, Azərbaycan tarixən müxtəlif xalqların, dilllərin və dinlərin vəhdətində yaşanılan coğrafi ərazidir. XIX-XX əsrlər Azərbaycan ədəbiyyatında geniş şəkildə əks edilən milli multikultural dəyərlər belə qruplaşdırmışdır:

1.Milli kimlik

2.Ümumbəşəri humanist dəyərlər, bəşəri ideyalar

3.Xalqlar arasında dostluq

4.Dini və mədəni dözümlülük

5. Tolerantlılıq və s.

Ümumiyyətlə, XIX əsrdə maarifçi realizm, XX əsr satirik və realist inikas üsullarında multikulturalizmin təzahürlərinin izlərini görmək mümkündür. XIX-XX əsrlər 2 zamanın kəsişdiyi dövr idi:

1. Milli oyanışın dövrü: Milli kimliyin şüurlarda axtarılması ilə başlayır.

2. Mədəniyyətin modernləşməsi dövrü: feodal münasibətlərin zəifləməsi, maarifçilik hərəkatının güclənməsi ilə müşahidə olunur.

XIX-XX əsrlər Azərbaycan ədəbiyyatında həm Azərbaycanın milli kimliyinin qorunması, həm də fərqli xalqların mədəniyyətinə hörmət, dini və etnik müxtəlifliyə dözümlülük (tolerantlılıq) kimi universal dəyərlər əks etdirilmişdir. Azərbaycan cəmiyyətində əsrlər boyu mövcud olan mədəni

mütəliflilik və tolerantlılıq ənənələri XIX-XX əsrlər ədəbiyyatında da əks olunmuşdur. XIX əsr Azərbaycan ədəbiyyatı həm klassik ənənələrin qorunması, həm də yeni maarifçi realist istiqamətlərin təşəkkülü ilə xarakterizə edilir. Məhz bu dövrdə ədəbiyyat 2 ədəbi ənənəyə köklənərək inkişaf edirdi.

1. Klassik divan ədəbiyyatı üslubu ilə: yazılı ədəbiyyatın güclənməsi

2. Folklor ənənəsi üslubu ilə: Xalq yaradıcılığına yaxınlaşmasının güclənməsi

Azərbaycan ədəbiyyatında XIX-XX əsrlər dövrünün təbliğ etdiyi milli maarifçilik multikultural dəyərləri:

- Sabir şeirlərində müsəlman dünyasının geriliyini tənqid etməklə yanaşı, elm və tərəqqini ümumbəşəri dəyər kimi təqdim edirdi.
- Cəlil Məmmədquluzadə öz əsərlərində müxtəlif millətlərin insanlarını obrazlaşdıraraq "hamımız bəşəriyyətin övladıyıq" fikrini önə çəkirdi.
- Natəvanın şeirləri, Sabirin qadın mövzusunda satiraları, Haqverdiyevin əsərləri qadın azadlığı və gender bərabərliyinə xidmət edirdi.
- Səməd Vurğun, R.Rza poeziyasında xalqlar dostluğu, ümumbəşəri birlik ideyaları təbliğ edilirdi.
- M.F.Axundov yaradıcılığında maarifçilik ideyaları təbliğ edilirdi.
- Qasım bəy Zakir yaradıcılığında satirik şeirlər, sosial ədalət və bərabərlik düşüncəsi təbliğ edilirdi.
- Seyid Əzim Şirvani əsərlərində maarif, elm, məktəb, humanizm ideyaları təbliğ edilirdi.
- Xurşidbanu Natəvan poeziyasında sevgi, mərhəmət, insani dəyərlərə hörmət təbliğ edilirdi.

Ədəbi məclislərin milli maarifçilik multikultiral mühitin formalaşmasındakı rolu təbii ki, danılmazdır. Məlumdur ki, əsl elmi milli ədəbi tənqid XIX əsrdə formalaşmağa başlamışdır. Belə ki, XIX əsrdə fəaliyyətə başlayan "Beytüs-səfa", "Gülüstan", "Divani-hikmət", "Məclisi-üns", "Məclisi-fəramuşan", "Fövcül-füsəha", "Əncümanü-şüəra" və s. kimi ədəbi məclislərdə təşkil edilən şeirlərin, söz sənətinin müzakirəsi maarifçilik ideyalarının təbliğinə kökləndi.

XIX əsr Azərbaycan ədəbiyyatının əsas hissəsini təşkil edən bu ədəbi məclislər multikultural mühitin formalaşmasında mühüm rol oynamışdır. Belə ki, ədəbi məclislərdə müxtəlif təriqət və dünya görüşünə malik şairlər, ziyalılar, tənqidçilər birgə ədəbi müzakirələr aparırdılar. Bu ədəbi məclislərdə azərbaycanlı şairlər ziyalılarla yanaşı digər Qafqaz xalqlarının şair və ziyalıları da iştirak edirdilər, yazılan şeirləri forma və məzmun baxımından təhlil edirdilər, ədəbi müzakirələr edirdilər. Həmçinin bu ədəbi məclislərdə şair və ziyalıların milli kimlik, bəşəri ideyaları da təbliğ edilirdi.

Ədəbi məclislərdə təşkil edilən ədəbi müzakirələr məclis mədəniyyətlərinin dialoqunun bariz nümunəsi idi. Məsələn: Xurşidbanu Natəvanın rəhbərliyi ilə Şuşada təşkil edilən "Məclisi-üns", Seyid Əzim Şirvaninin təşəbbüsü ilə Şamaxıda fəaliyyət göstərən "Beyts-səfa", "Məclisi-fəramuşan", "Məclisi-şüara" və s. kimi ədəbi məclislərdə müxtəlif təriqət və dünyagörüşə malik insanların apardıqları birgə ədəbi müzakirələrin inteqrasiyası Azərbaycanda multikulturalizm və interkuturalizm mühitinin əsrlərdən bəri formalaşmasının bariz sübutudur. Bu ədəbi məclislərdə təşkil edilən ədəbi

müzakirələrdə maarifçilər insanı elmə, tərəqqiyə çağırmaqla yanaşı dini, milli və mədəni tolerantlıq ideyalarını da təbliğ edirdilər.

Ədəbi məclislərdə aparılan diskussiyalarda təbliğ edilən milli maarifçilik multikultural dəyərlərini belə sistemləşdirmək olar:

- Dinlərarası dözümlülük
- Fərqli mədəniyyətlərə və dinlərə hörmət
- Qadın hüquqları və sosial bərabərlik
- Tolerant cəmiyyət ideyası
- Mədəniyyətlərarası dialoq və qarşılıqlı zənginləşmə
- İnsanlığa və bəşəri dəyərlərə əsaslanan yanaşma və s.

Məsələn: Mirzə Fətəli Axundzadə Şərq və Qərb mədəniyyətlərini müqayisə edərək Qərbin tərəqqisinə heyranlıqla yanaşır, lakin öz milli kimliyini qorumağın və fərqli mədəniyyətlərdən öyrənməyin tərəfdarıdır. Bu yanaşma da qadın və kişi arasında bərabərliyin təmin olunması, bütün sosial qrupların bərabər hüquqlu və hörmətli mövqeyinin tanınması baxımından multikultural yanaşmaya daxildir. Ədəbi məclislərdə dinlərarası və mədəni dözümlülük, bərabərlik, insan hüquqları və dünyəvi idarəetmə kimi multikultural dəyərlər fəlsəfi şəkildə təqdim olunurdu.

Ədəbi məclislər Azərbaycan maarfçi düşüncəsində və dillərə hörmət prinsipinə söykənən ilk nümunələrdəndir. Burada mədəniyyətlərarası dialoq, dillərin qarşılıqlı öyrənilməsi, bəşəri dəyərlərin önə çəkilməsi və fərqli mədəniyyətlərin harmonik şəkildə mövcudluğu ideyası multikulturalizmin bünövrəsi kimi təqdim olunur, həmçinin əsərlərdə yalnız milli kimlik deyil, mədəni müxtəlifliyə hörmət hissini formalaşdırmaq məqsədilə də təqdim edilirdi.

Ədəbi məclislər XIX əsr Azərbaycan maarifçiliyinin təməl nöqtəsidir. Burada müzakirələrə çıxarılan şeirləşmələrdə elm və biliklə tərəqqi, xalqlar və millətlər arasında bərabərlik, insanlıq və tolerantlıq ideyaları çox güclü şəkildə ifadə edilirdi. Məlumdur ki, elm, bilik və xalqlar arasında bərabərlik ideyası maarifçilik ideyalarının əsas xəttidir. Ədəbi məclislərdə təşkil edilən şeirləşmələrdə elm və bilik vasitəsilə xalq və millətlər arasında bərabərlik xüsusilə vurğulanırdı. Məsələn: Seyid Əzim Şirvaniyə görə, elm əldə edən millət tərəqqi edəcək, ondan uzaqlaşan isə geriləyəcəkdir. Onun yaradıcılığında elm millətləri xoşbəxt edən ümumbəşəri dəyər kimi təqdim edilirdi. Şair cəhaləti ən böyük bəlalardan biri hesab edirdi.

Ədəbi məclis şeirlərində dini fanatizm, millətçiliklə açıq mübarizə aparılırdı. Millətlərarası tolerantlılıq və birgəyaşayış ideyası əsərlərdə təbliğ edilirdi. Çünki elm və maarif xalqları birləşdirir, universal dəyər kimi təqdim olunurdu.

Ədəbiyyat:

1.Xalid Əlimirzəyev, (2008) “Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları”, Bakı

2. Mir Cəlal, Pənah Xəlilov,(2005) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı, Çaşıoğlu

3. Məmməd Əliyev, (2012) “Ədəbiyyat nəzəriyyəsinin əsasları”, Bakı

4. Məhəmmədəli Mustafayev, (2021) Ədəbiyyat nəzəriyyəsi, Bakı

5.Nizaməddin Şəmsizadə, (2012) “Ədəbiyyat nəzəriyyəsi”, Bakı

6. Rafiq Yusifoğlu, (2001) “Ədəbiyyatşünaslığın əsasları”, Bakı